İnsulinin vurulma qaydaları

Şəkərli diabet qanda şəkərin daim yüksək olması (hiperqlikemiya) ilə müşayiət olunan xroniki xəstəlikdir.

Qanda şəkərin miqdarını insulin hormonu tənzimləyir. Sağlam insanda qida qəbulu zamanı insulin lazımi miqdarda ifraz olunur. Diabetli xəstələrdə bu hormonun çatışmazlığı səbəbindən insulin inyeksiya üsulu ilə bədənə yeridilir. Əksər hallarda insulin inyeksiyasını xəstə özü özünə vurur.

İnsulinin konsentrasiyaları və insulin şprisləri

İnsulinin qatılığı təsir vahidi (TV) ilə ölçülür. İnsulin müxtəlif qatılıqda (1 ml-də 40 və 100 TV) buraxılır. İnsulinin yeridilməsi üçün xüsusi insulin şprisindən istifadə olunur. Şprisin üzərindəki qeyd (40 və ya 100 TV) onun hansı konsentrasiyalı insulin üçün nəzərdə tutulduğunu göstərir. **Hər hansı bir qatılıqda olan insulin MÜTLƏQ ona müvafiq insulin şprisi ilə vurulmalıdır!**

İnsulin inyeksiyalarını asanlaşdıran şpris-qələmlərdən də istifadə etmək olar. Şpris-qələmlərə əvvəlcədən xüsusi insulin-kartricləri yerləşdirilir. Beləliklə, xəstənin insulin flakonunu özü ilə daşımasına ehtiyac qalmır.

İnsulin şpris-qələmini istifadə etməzdən əvvəl onun istifadə qaydalarını mütləq oxuyun!

İnsulinin şprisə yığılması

- insulin inyeksiyasından əvvəl əlləri sabunla yaxşıca yuyun
- insulin flakonunu və şprisi hazırlayın, flakonun rezin tıxacını spirtli pambıqla silin
- uzun təsir müddətli və ya qarışıq insulin vurulduqda flakonu əllərin içində tam qarışanadək sürüşdürün (bulanıq rəng alınmalıdır)
- insulin dozasının dəqiq və asan yığılması üçün flakonun içərisinə hava vurmaq lazımdır. Bunun üçün şprisə insulinin tələb olunan dozası miqdarında hava yığın, flakonun rezin qapağını iynə ilə deşin, şprisin porşenini sıxmaqla flakonun içərisinə havanı buraxın
- bundan sonra flakonu başıaşağı çevirin, flakonu və ona taxılmış şprisi göz səviyyəsində tutmaqla insulini şprisə yığın
- iynəni flakondan çıxarın və şprisə yığılmış insulinin dozasının düzgün olduğunu yoxlayın
- şprisdə hava qalıbsa, onu çıxarmaq lazımdır. İynəni yuxarı tutaraq şprisə barmaqla astaca vurun. Hava qabarcıqları qalxdıqda yavaşca porşenə basın, bu zaman hava iynə vasitəsilə xaric olacaq

İnsulinin vurulması

İnsulin dərialtı piy qatına vurulmalıdır. Onu dəriyə və ya əzələ daxilinə vurmaq düzgün deyil.

- inyeksiya nahiyəsini paltardan azad edin (adi gigiyena qaydalarına əməl olunan şəraitdə inyeksiya nahiyəsinin spirtlə silinməsi tələb olunmur)
- dərini barmaqlarla büküşə götürün (bu, iynənin əzələ daxilinə düşmə ehtimalını azaldır)
- iynəni dəri səthinə perpendikulyar və ya 45 dərəcəli bucaq altında vurun
- dəri büküşünü barmaqlar arasında saxlayaraq, şprisin porşenini axıradək itələməklə insulini yeridin. İnsulin yeridiləndən 7-10 saniyə sonra iynəni çıxarın və büküşü barmaqlar arasından azad edin. İnyeksiya nahiyəsini masaj etmədən basın

İnsulinin inyeksiya nahiyələri

İnsulin bədənin ayrı-ayrı nahiyələrindən müxtəlif sürətlə sorulur. İnsulinin ən tez sorulduğu nahiyə qarının ön səthidir.

İnsulin aşağıdakı nahiyələrə vurulur:

1. Qarının ön səthi (insulinin **tez** sorulduğu nahiyə)
2. Budun ön kənar səthi (insulinin **orta** sorulduğu nahiyə)
3. Bazunun kənar səthi (insulinin **orta** sorulduğu nahiyə)
4. Sağrının kənar səthi (insulinin **gec** sorulduğu nahiyə)



Öz-özünə inyeksiya zamanı iynənin əzələ daxilinə düşmə ehtimalı olduğu üçün xəstəyə bazu və ya sağrının kənar səthinə inyeksiya etməməsi tövsiyə olunur. Həmçinin insulini çapıqlaşma, bərkimə və ya iltihab əlamətləri olan sahələrə yeritmək olmaz.

Yeməkdən əvvəl qısa təsir müddətli və ya qarışıq insulini qarının ön səthinə, uzun təsir müddətli insulini isə bud və sağrı nahiyələrinə vurmaq məsləhətdir.

Eyni təsir müddətli insulinin hər dəfə eyni nahiyəyə vurulmasına riayət edilməlidir. Əks hal qanda şəkərin səviyyəsinin enib-qalxmasına səbəb ola bilər.

Hər növbəti iynə əvvəlki inyeksiya yerindən ən azı 2 sm kənara batırılmalıdır. İnyeksiyaları nahiyə boyunca bərabər şəkildə paylaşdırmaq lazımdır. İynənin daim eyni yerə vurulması dəridə bərkimə (lipodistrofiya) nahiyələrinin əmələ gəlməsinə səbəb ola bilər.

Normal və aşağı bədən çəkili insanlarda iynənin əzələ daxilinə düşmək ehtimalını azaltmaq üçün qısa iynəli (uzunluğu 5 və ya 8 mm olan) şprislərdən istifadə etmək tövsiyə olunur.

Qısa və uzun təsir müddətli insulinlərin bir şprisdə qarışdırılması

Bəzi hallarda qısa və uzun təsir müddətli insulinlərin bir şprisdə inyeksiyası təyin olunur.
Diqqət: Hər uzun təsir müddətli insulini qısa təsir müddətli insulinlə qarışdırmaq olmaz! Bu, mümkün olduğu halda qısa təsir müddətli insulin şprisə birinci yığılır. Uzun təsir müddətli insulinin qısa təsir müddətli insulinin flakonuna düşməsinə və ya əksinə heç bir halda yol vermək olmaz!

Qısa və uzun təsir müddətli insulin bir şprisə aşağıdakı ardıcıllıqla yığılmalıdır:

- uzun təsir müddətli insulin flakonuna insulin dozasına uyğun həcmdə hava vurun. İynəni bu flakondan çıxarın
- qısa təsir müddətli insulin flakonuna insulin dozasına uyğun həcmdə hava vurun
- iynəni flakondan çıxarmadan şprisə əvvəlcə qısa təsir müddətli insulin (şəffaf insulin) çəkin, sonra həmin şprisə uzun təsir müddətli insulin yığın

Diqqət: Bir şprisdə 2 insulini qarışdırarkən şəffaf insulinin (qısa təsirli insulin) uzun təsir müddətli insulinin flakonuna düşməsinə yol vermək olmaz!

İnyeksiya zamanı belə səhvə yol verilməməsi üçün qısa və orta təsir müddətli insulinin hazır kombinə olunmuş preparatlarından istifadə edin.

5
10
15
20
25
30
35
40

İnsulinin saxlanması və daşınması

- insulin flakonunun üzərindəki son istifadə tarixini yoxlayın. Müddəti bitmiş insulin təsiredici gücə malik olmadığından ondan istifadə etməyin!
- ehtiyat insulin flakonlarını və şpris-qələmləri soyuducuda 2-8°C hərarətdə saxlayın. Onların dondurulması yolverilməzdir!
- gündəlik istifadə olunan insulin flakonlarını və şpris-qələmləri adi otaq şəraitində 1 ay müddətində saxlamaq olar
- insulin məhlullarının rənginə fikir verin (qısa təsir müddətli insulinlər şəffaf olur)
- insulin flakonlarını və şpris-qələmləri günəş şüaları altında və yay vaxtlarında avtomobildə qoymayın (insulin günəş şüalarının təsirindən parçalana bilər)
- inyeksiyalardan sonra növbəti istifadə üçün insulin flakonlarını kağız qutulara və ya şkafa qoyun
- səfər zamanı insulin flakonlarını və şpris-qələmləri yük yerinə verməyin

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 noyabr 2010-cu il tarixli 222 nömrəli qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər proqramı"nın icrası üçün Səhiyyə Nazirliyinin "Tədbirlər Planı"nın 2.1-ci və "2011-2015-ci illər üzrə Strateji Planı"nın 2.5.1-ci bəndlərinə uyğun olaraq Respublikanın şəhər və rayonlarında diabet məktəbləri şəbəkəsi fəaliyyət göstərir. Bu məktəblərdə şəkərli diabet xəstələri və risk qrupuna aid əhali üçün tibb işçiləri tərəfindən pulsuz təlimlər keçirilir. Təlimlər zamanı iştirakçılara şəkərli diabetlə bağlı bilik və bacarıqlar verilməklə yanaşı, maarifləndirici materiallar da paylanılır.
Arzu edənlər aşağıda sadalanan diabet məktəblərinə müraciət edə bilərlər:

Bakı şəhəri:
- Respublika Endikrinoloji Mərkəz
- İctimai Səhiyyə və İslahatlar Mərkəzi
- 6 saylı Uşaq Xəstəxanası

Naxçıvan şəhəri:
- Naxçıvan Şəhər Endokrinoloji Dispanseri

Sumqayıt şəhəri:
- 2 saylı Şəhər Poliklinikası

Gəncə şəhəri:
- Gəncə Şəhər Endokrinoloji Xəstəxanası

Mingəçevir şəhəri:
- Mingəçevir Şəhər Endokrinoloji Dispanseri

Şirvan şəhəri:
- Şirvan Şəhər Mərkəzi Xəstəxanası

Lənkəran rayonu:
- Lənkəran Rayon Mərkəzi Xəstəxanası

Şəki rayonu:
- Şəki Rayon Mərkəzi Xəstəxanası

Salyan rayonu:
- Salyan Rayon Mərkəzi Xəstəxanası

Kitabça Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 noyabr 2010-cu il tarixli 222 nömrəli qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər proqramı"nın icrası ilə bağlı Səhiyyə Nazirliyinin Tədbirlər Planının 4.1-ci bəndinə uyğun olaraq İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Bakı, AZ1122, H. Zərdabi küç., 96
Tel: 431-60-88, Faks: 430-52-85
office@isim.az www.isim.az